# “Artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının vergi ödəyicilərinə qaytarılması məqsədi ilə müraciət” elektron xidmətinin İstifadəçi təlimatı

**“Artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının vergi ödəyicilərinə qaytarılması məqsədi ilə müraciət”**in təqdim olunması üçün Dövlət Vergi Xidmətinin İnternet Vergi İdarəsinə (https://new.e-taxes.gov.az/etaxes/) giriş edib, aşağıda qeyd olunan identifikasiya vasitələrindən istifadə etməklə elektron kabinetə daxil olmaq lazımdır:

- Asan İmza;

- SİMA Token.

Növbəti mərhələdə açılan yeni pəncərədə **“Ərizələr”** modulu seçilir.




Daha sonra “Artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının vergi ödəyicilərinə qaytarılması məqsədi ilə müraciət” ilə bağlı ərizənin təqdim

olunması üçün “Yeni ərizə” xanasına müraciətə uyğun ərizənin adı yazılaraq axtarış nəticəsində ekranda adı əks olunan ərizə forması və yaxud ekrandakı **“Hamısına bax”** düyməsi vasitəsilə yeni açılan pəncərədən müvafiq ərizə forması seçilir.




Əgər istifadəçi tərəfindən daha əvvəl bu ərizə forması tərtib edilərək qaralamada saxlanılmışdırsa, o zaman ekranda açılan pəncərədə əvvəl qaralaması yaradılmış ərizə formaları əks olunur və seçim imkanı verilir. İstifadəçi əvvəllər qaralaması yaradılmış ərizə forması üzrə davam etmək istədikdə ekranda qaralaması olan ərizə forması seçilir və bu zaman aktivləşən **“Davam et”** düyməsi sıxılır və yeni pəncərədə əvvəl doldurulmuş ərizə forması açılır və düzəliş imkanı mümkün olur.




Müvafiq ərizə forması üzrə yeni ərizə forması yaratmaq istənildikdə isə **"Yeni ərizə yarat"** seçimi edilib, **"Davam et"** düyməsi sıxılır




Açılmış ərizə formasında əks olunan **"Siyahıya qayıt"** düyməsi sıxıldıqda ekranda əks olunan pəncərədəki **"İmtina"** düyməsi sıxılmaqla ərizə formasının doldurulmasına qaldığı yerdən davam etmək, **"Xeyr, silinsin"** düyməsi sıxılmaqla yaradılmış ərizə formasını silmək, **"Bəli, yadda saxlanılsın"** düyməsi sıxılmaqla yaradılmış ərizə formasının yadda saxlanılması mümkün olur.







“Xeyr, silinsin” düyməsi sıxıldıqda açılan “Xidmətin yekunlaşdırılması” pəncərəsindəki müvafiq məlumatlar doldurulduqdan sonra aktivləşən “**Göndər**” düyməsi sıxılır.




Açılan ekranda vergi ödəyicisinin VÖEN-i, adı və artıq ödəmənin məbləği barədə məlumatlar avtomatik olaraq əks etdirilir.



Ərizə

Bank hesabı məlumatları

| | |
|---|---|
| VÖEN | 9900050571 |
| Adı | "CYBERNET" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ (Ləğv prosesindədir) |
| Bankın adı | * |
| Filialın adı | |
| Bankın müxbir hesabının nömrəsi | * |
| Vergi ödəyicisinin hesab nömrəsi | * |
| Artıq ödəmənin yaranma tarixi | * gg.aa.iiii |

Artıq ödəmə məlumatları

| | |
|---|---|
| Artıq ödəmənin adı | * |
| Tədiyyə kodu | * |
| Artıq ödəmənin ödənilmə tarixi | * gg.aa.iiii gg.aa.iiii |
| Artıq ödəmənin məbləği (manatla) | * 27 291 170,91 |
| Artıq ödəmənin yaranma səbəbi | * |

“Bankın adı” və “Filialın adı” xanaları üzrə artıq ödəmənin köçürüləcəyi müvafiq bank və onun filialı seçilir və bunun nəticəsində “Bankın müxbir hesabının nömrəsi” xanasına məlumat avtomatik inteqrasiya olunur.




Növbəti addımda “Vergi ödəyicisinin hesab nömrəsi” xanasında vergi ödəyicisinin bank hesabı nömrəsi seçilir və “Artıq ödəmənin yaranma tarixi” xanasına artıq ödəmənin şəxsi hesab vərəqəsində yarandığı tarix qeyd edilir.



“Artıq ödəmənin adı” xanasına artıq ödəmənin yarandığı vergi növü və “Tədiyyə kodu” xanasına isə müvafiq vergi növünə aid kod qeyd edilir.



Ərizə

Bank hesabı məlumatları

| | |
|---|---|
| VÖEN | 9900050571 |
| Adı | "CYBERNET" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ (Ləğv prosesindədir) |
| Bankın adı | * "AZƏRBAYCAN BEYNƏLXALQ BANKI" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ |
| Filialın adı | "AZƏRBAYCAN BEYNƏLXALQ BANKI" AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN YEVLAX FİLİ... |
| Bankın müxbir hesabının nömrəsi | * AZ03NABZ01350100000000002944 |
| Vergi ödəyicisinin hesab nömrəsi | * AZ03IBAZ07950100000000001112 |
| Artıq ödəmənin yaranma tarixi | * 01.01.2023 |

Artıq ödəmə məlumatları

| | |
|---|---|
| Artıq ödəmənin adı | * 0200 - Mənfəət vergisi |
| Tədiyyə kodu | * 111211 |
| Artıq ödəmənin ödənilmə tarixi | * gg.aa.iiii gg.aa.iiii |
| Artıq ödəmənin məbləği (manatla) | * 27 291 170,91 |
| Artıq ödəmənin yaranma səbəbi | * |

“Artıq ödəmənin ödənilmə tarixi” xanasına vergi ödəyicisi tərəfindən artıq ödəmənin edildiyi tarix aralığı qeyd edilir.

## Ərizə

### Bank hesabı məlumatları

| | |
|---|---|
| VÖEN | 9900050571 |
| Adı | "CYBERNET" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ (Ləğv prosesindədir) |
| Bankın adı | * "AZƏRBAYCAN BEYNƏLXALQ BANKI" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ |
| Filialın adı | "AZƏRBAYCAN BEYNƏLXALQ BANKI" AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN YEVLAX FİLİ... |
| Bankın müxbir hesabının nömrəsi | * AZ03NABZ01350100000000002944 |
| Vergi ödəyicisinin hesab nömrəsi | * AZ03IBAZ07950100000000001112 |
| Artıq ödəmənin yaranma tarixi | * 01.01.2023 |

### Artıq ödəmə məlumatları

| | |
|---|---|
| Artıq ödəmənin adı | * 0200 - Mənfəət vergisi |
| Tədiyyə kodu | * 111211 |
| Artıq ödəmənin ödənilmə tarixi | * 01.01.2022 — 01.04.2022 |
| Artıq ödəmənin məbləği (manatla) | * 27 291 170,91 |
| Artıq ödəmənin yaranma səbəbi | * |

"Artıq ödəmənin yaranma səbəbi" xanasına müvafiq səbəb qeyd edilir.

## Ərizə

### Bank hesabı məlumatları

| | |
|---|---|
| VÖEN | 9900050571 |
| Adı | "CYBERNET" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ (Ləğv prosesindədir) |
| Bankın adı | * "AZƏRBAYCAN BEYNƏLXALQ BANKI" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ |
| Filialın adı | "AZƏRBAYCAN BEYNƏLXALQ BANKI" AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN YEVLAX FİLİ... |
| Bankın müxbir hesabının nömrəsi | * AZ03NABZ01350100000000002944 |
| Vergi ödəyicisinin hesab nömrəsi | * AZ03IBAZ07950100000000001112 |
| Artıq ödəmənin yaranma tarixi | * 01.01.2023 |

### Artıq ödəmə məlumatları

| | |
|---|---|
| Artıq ödəmənin adı | * 0200 - Mənfəət vergisi |
| Tədiyyə kodu | * 111211 |
| Artıq ödəmənin ödənilmə tarixi | * 01.01.2022 — 01.04.2022 |
| Artıq ödəmənin məbləği (manatla) | * 27 291 170,91 |
| Artıq ödəmənin yaranma səbəbi | * X dövrü üzrə MDSS ödənişinin edilməsi əvəzinə mənfəət vergisi üzrə ödəmə edilmişdir. |

Müvafiq məlumatlar daxil edildikdən sonra "Əlavə et" düyməsi sıxılır.




Müvafiq düymə sıxıldıqdan sonra ekranda ərizədə göstərilmiş məlumatları özündə əks etdirən panel yaranır. Bu paneldən daxil edilmiş məlumatları silmək üçün sol kənar hissədən seçim etməklə "Seçilmişləri sil" düyməsi sıxılmaqla məlumatları silmək mümkündür.



Daha sonra ərizənin göndərilməsi üçün aktivləşən “Növbəti” düyməsi, qaralamada saxlanılması və daha sonra göndərilməsi üçün “Qaralamada saxla və çıx” düyməsi sıxılır.




“Növbəti” düyməsi sıxıldıqdan sonra müvafiq ərizə forması imzalanaraq göndərilə və ya bu əməliyyatdan imtina edilə bilər.



“İmtina” düyməsi sıxıldıqdan sonra ekranda əks olunana “Sil” düyməsi sıxılmaqla arayış forması silinə və ya əksinə bu əməliyyatdan imtina edilə bilər.







Ərizə imzalanaraq göndərildikdən sonra yeni pəncərədə istifadəçi tərəfindən doldurulmuş məlumatlara uyğun ərizə forması və müvafiq ərizənin göndərilməsi barədə “Bildiriş” ekranda əks olunur. Həmin pəncərədə **“Çap”** düyməsi vasitəsi ilə ərizə çap edilə, **“Endir”** düyməsi vasitəsi ilə endirilə (yüklənilə) bilər. **“Bağla”** düyməsi isə pəncərəni bağlamaq üçün nəzərdə tutulmuşdur.

Ərizə

×

## Artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyaların vergi ödəyicilərinə qaytarılması məqsədi ilə müraciət

Endir

**Qeydiyyat nömrəsi 2319010018916500 | Qəbul olundu 31.10.2023 saat 14:34**

| | |
|---|---|
| VÖEN | 9900050571 |
| Adı | "CYBERNET" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ (Ləğv prosesindədir) |
| Bankın adı | "AZƏRBAYCAN BEYNƏLXALQ BANKI" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ |
| Filialın adı | "AZƏRBAYCAN BEYNƏLXALQ BANKI" AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN YEVLAX FİLİALI |
| Bankın müxbir hesabının nömrəsi | AZ03NABZ01350100000000002944 |
| Vergi ödəyicisinin hesab nömrəsi | AZ03IBAZ07950100000000001112 |
| Artıq ödəmənin yaranma tarixi | 01.01.2023 |

### Artıq ödənilmiş məbləğlərin siyahısı

| Artıq ödəmənin adı | Təsnifat kodu | Artıq ödəmənin ödənilmə tarixi | Artıq ödəmənin yaranma səbəbi | Artıq ödəmənin məbləği (manatla) |
|---|---|---|---|---|
| Mənfəət vergisi | 111211 | 01.01.2022 - 01.04.2022 | x dövrü üzrə MDSS ödənşi əvəzinə mənfəət vergisi üzrə ödəmə edilmişdir. | 27 291 170,91 |
| **ÜMUMİ** | | | | 27 291 170.91 |

| | |
|---|---|
| VÖEN | 9900050571 |
| Adı | "CYBERNET" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ (Ləğv prosesindədir) |
| Bankın adı | "AZƏRBAYCAN BEYNƏLXALQ BANKI" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ |
| Filialın adı | "AZƏRBAYCAN BEYNƏLXALQ BANKI" AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN YEVLAX FİLİALI |
| Bankın müxbir hesabının nömrəsi | AZ03NABZ01350100000000002944 |
| Vergi ödəyicisinin hesab nömrəsi | AZ03IBAZ07950100000000001112 |
| Artıq ödəmənin yaranma tarixi | 01.01.2023 |

### Artıq ödənilmiş məbləğlərin siyahısı

| Artıq ödəmənin adı | Təsnifat kodu | Artıq ödəmənin ödənilmə tarixi | Artıq ödəmənin yaranma səbəbi | Artıq ödəmənin məbləği (manatla) |
|---|---|---|---|---|
| Mənfəət vergisi | 111211 | 01.01.2022 - 01.04.2022 | x dövrü üzrə MDSS ödənşi əvəzinə mənfəət vergisi üzrə ödəmə edilmişdir. | 27 291 170,91 |
| **ÜMUMİ** | | | | 27 291 170,91 |

Bağla

İstifadəçi tərəfindən göndərilən “Artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının vergi ödəyicilərinə qaytarılması məqsədi ilə müraciət” “Göndərilənlər” qovluğunda əks olunur və bu hissədə ərizənin statusu barədə məlumat qeyd olunur.




Eyni zamanda bu hissədən də istifadəçi tərəfindən **“Çap”** düyməsi vasitəsi ilə ərizə çap edilə, **“Endir”** düyməsi vasitəsi ilə endirilə (yüklənilə) bilər.

